525-ci qəzet



26 iyun / 2021

# ADMİU-da "Zəfər lövhəsi" açılıb




İyunun 25-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) 26 iyun - Silahlı Qüvvələr Günü münasibəti ilə II Qarabağ müharibəsi döyüşçülərinin və şəhidlərin şərəfinə hazırlanan "Zəfər" lövhəsinin açılış mərasimi keçirilib. Tədbirdə universitet rəhbərliyi, professor-müəllim heyəti və ADMİU-nun döyüşçü məzunları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Ceyran Mahmudova qeyd edib ki, II Qarabağ müharibəsində ADMİU-nun 50-dən çox nümayəndəsi iştirak edib və şərəflə döyüşüb. Onlar arasında əməkdaşlar, tələbələr və məzunlar var: "Üç məzunumuz şəhidlik zirvəsinə ucalıb. Bir sıra döyüşçümüz medallarla təltif olunub. Biz universitet olaraq hər biriylə fəxr edir, müharibə dövründə necə onlara dəstək olmağa çalışırdıqsa, bundan sonra da hər zaman yanlarında olmağa çalışacağıq. Çünki bu, bizim vətəndaşlıq borcumuzdur. Onların sayəsində Azərbaycan xalqının 30 illik torpaq həsrəti başa çatdı. Bu gün Qarabağ və bütün torpaqlarımız azaddır. Bu günlərimiz özündən sonrakı nəsillərə də ən gözəl nümunədirlər".

Rektor 24 iyun tarixində Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında yeni medallarla təltif olunmuş ADMİU-nun Vətən müharibəsi iştirakçılarının da adlarını çəkib, onları universitetin kollektivi adından təbrik edib.

ADMİU-nun prorektoru, professor Gülşən Əliyeva-Kəngərli deyib ki, şəhidlik də, qazilik də şərəf zirvəsidir. İgid oğullarımız özlərini düşünmədən bu zirvəyə atıldılar və qalibiyyət qazandılar. Onların hərəsi bir bədirlənməmiş hilaldır. Hər dəfə üçrəngli bayrağımız şərəflə, qürurla dalğalananda o bayrağda əbədi həkk olunmuş bədirlənməmiş hilal görünəcək".

Daha sonra ADMİU-nun Ümumi işlər üzrə prorektoru Təriqəddin Həmidov, ADMİU-nun rektorunun müşaviri, dosent Nigar Rüstəmova, ADMİU Rəssamlıq fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova, kafedra müdirləri, professorlar Əli Əmirli və Gülşad Baxşıyeva, ADMİU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səyavuş Məhişov çıxış edərək bildiriblər ki, Azərbaycan ordusu və xalqı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunan parlaq zəfər qazandı.

Tədbirdə ADMİU-nun Vətən müharibəsi iştirakçıları da çıxış ediblər. Universitetin Televiziya və Kino-Tədris studiyasının video mexaniki-operatoru Azər Həsənov çıxışında öz atasının da I Qarabağ Müharibəsi veteranı olduğunu bildirib. Savaş zamanı və müharibədən sonra da onlara, ailələrinə göstərilən diqqətə görə universitet rəhbərliyinə təşəkkür edən A.Həsənov yaradılan "Zəfər" lövhəsini yüksək qiymətləndirib.

ADMİU-nun məzunu, aktyor, Vətən müharibəsi iştirakçısı Şahmar Məmmədov keçdiyi döyüş yolundan bəhs edib, qələbə sevincini Azərbaycan xalqına yaşadanlar arasında özünün də olmasından böyük qürur hissi keçirdiyini bildirib.

Tədbirdə iştirak edən döyüşçülərdən Tərlan Əsgərli, Röyal Allahverdiyev, Ceyhun Əlizadə, Səlimov Əli, Cavid Arzumanov, Xankişi Bağırov, hərbi xidmətdə olduğu üçün qatıla bilməyən Kənani Əlirzanın anası Firuzə xanım və başqaları göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə öz təşəkkürlərini bildiriblər.

Sonda döyüşçülərə ADMİU tərəfindən hədiyyələr təqdim olunub.

**Şahanə MÜŞFİQ**